# SOSİAL-İQTİSADİ İNKİŞAFDA REGİONAL QEYRİ-BƏRABƏRLİK PROBLEMİ

## ARAŞDIRMA SƏNƏDİ



Demokratik Təşəbbüslər İnstitutu
IDI
Institute for Democratic Initiatives

2021

# Sosial-iqtisadi inkişafda regional qeyri-bərabərlik probleminə dair

# Araşdırma Sənədi

**Ekspertlər: Rövşən Ağayev / Azər Mehtiyev**

**Bakı-2021**

# Mündəricat

Xülasə ........................................................................................................................ 3

Giriş ........................................................................................................................ 4

Sosial-iqtisadi inkişafda regional qeyri-bərabərlik problemi: mövcud durum və səbəbləri .................. 5

Problemin həlli istiqamətində indiyədək həyata keçirilən tədbirlər və nəticələri .................................. 9

Regionların tarazlı sosial-iqtisadi inkişafının təmin edilməsi yolları və mexanizmləri ........................ 12

Nəticə və tövsiyələr ........................................................................................................ 16

Ədəbiyyat siyahısı ........................................................................................................ 17

# Xülasə

Aparılan tədqiqat belə bir nəticəyə gəlməyə əsas verir ki, Azərbaycanda 2004-cü ildən bəri regionların sosial-iqtisadi inkişafına yönəlik 3 dövlət proqramının icra edilməsinə, habelə "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasının icra müddətinin başa çatmasına baxmayaraq, ölkədə regionların sosial-iqtisadi inkişafı arasında olan kəskin fərqlərin aradan qaldırılması sahəsində hələ də ciddi problemlər qalır.

Tədqiqatda aparılan təhlili ümumiləşdirməklə demək olar ki, ölkənin bütün sosial-iqtisadi inkişaf parametrləri üzrə həm Bakı-Abşeron zonası ilə ölkənin digər regionaları arasında, həm də Bakı-Abşeron istisna olmaqla, ölkənin qalan regionlarının özləri arasında kəskin fərqlər qalmaqda davam edir.

Buna görə də tədqiqatda ölkədə regionların sosial-iqtisadi inkişafındakı qeyri-bərabərliyin azaldılması və daha səmərəli və tarazlı inkişafının təmin edilməsi üçün həm regional inkişafın idarə edilməsi və tənzimlənməsi sahəsində, həm də regionların iqtisadi inkişafının stimullaşdırılması mexanizmləri sahəsində islahatların aparılması təklif olunur və aşağıdakı kimi tövsiyələr irəli sürülmüşdür:

1. Azərbaycanda regional inkişafa məsul ayrıca mərkəzi hakimiyyət orqanının yaradılması zəruridir məqsədəuyğundur;
2. İqtisadi baxımdan problemli regionların və əlverişsiz coğrafi şəraitə malik bölgələrin inkişafı üzrə xüsusi proqramların hazırlanması zəruridir;
3. Azərbaycanda hər bir iqtisadi rayon üzrə xüsusi inkişaf proqram hazırlanması məqsədəuyğundur;
4. Regional sosial-iqtisadi problemlərin həllində bələdiyyələrin iştirakını atırmaq üçün onlaırn administrativ və maliyyə potensialının gücləndirilməsi vacibdir;
5. Regional iqtisadi inkişafda klasterlərin yaradılması yanaşmasına keçid edilməli və müvafiq strategiyalar işlənilməlidir;
6. Regionların rəqabət qabiliyyətliliyini dəyərləndirməyə imkan verən kəmiyyət və keyfiyyət metodları əsasında bölgələrin klaster potensialının analizi aparılmalıdır;
7. Klasterlərin yaradılmasına qarşı xüsusi tələblər müəyyən edilməlidir.

# Giriş

Azərbaycanda regionların tarazlı inkişafının təmin edilməsi, artıq uzun müddətdir ki, ölkənin qarşısında duran mühüm vəzifələrdən biridir. Bu həm də ölkənin dayanıqlı inkişafının zəruri şərtlərindən biridir. Regionların sosial-iqtisadi inkişafında tarazlığın əldə olunması özündə regionların sərvətlərindən və təbii şəraitindən səmərəli istifadə etmək, kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq, qeyri-neft sənaye sahələrinin, o cümlədən emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaq kimi komponentləri ehtiva edir. Regionların sosial-iqtisadi cəhətdən inkişaf edilmiş səviyyəyə çatdırılması ölkənin makroiqtisadi sabitliyinin təmin edilməsində, işsizlik probleminin həlllində, ölkənin ticarət dövriyyəsində müsbət saldo əldə edilməsində cox mühüm amil sayılır. Amma Azərbaycana həm sovet dövründən qalan miras, həm də müstəqilliyin ilk illərində iqtisadiyyatdakı böhran ölkənin regionları arasında sosial-iqtisadi inkişafda qeyri-bərabərliyin dərinləşməsinə gətirib çıxardı. Sonradan ölkədə həyata keçirilən neft strategiyası və ölkə iqtisadiyyatının neft gəlirlərindən asılı olması, xüsusilə Bakı-Abşeron zonası ilə ölkənin digər regionları arasında disbalansın son dərəcə dərinləşməsinə gətirib çıxartdı. 2002-ci ildən bəri ölkədə regionların sosial-iqtisadi inkişafı sahəsində bir sıra dövlət proqramlarının icra olunmasına, habelə hökumətin bir sıra digər proqram sənədlərində regional inkişaf məsələlərinə diqqət ayrılmasına və bu istiqamətdə kiçik də olsa, müəyyən irəliləyişlərin əldə olunmasına baxmayaraq, ölkənin regionlarının sosial-iqtisadi inkişaf səviyyələri arasında kəskin fərqlər və yüksək qeyri-bərabərlik davam edir. Bu fərq Bakı-Abşeron zonası ilə ölkənin bütün digər bölgələri arasında xüsusilə kəskin xarakter daşıyır. Bununla yanaşı, hətta Bakı-Abşeron zonası istisna olmaqla, ölkənin digər regionlarının inkişaf səviyyələri arasında müşahidə olunan fərqlər narahatlıq yaradır.

Bu siyasət sənədində son 2002-ci ildən bəri ölkədə regional sosial-iqtisadi inkişafdakı qeyri-bərabərliyin azaldılması və bölgələrin tarazlı inkişafına nail olmaq sahəsində hökumətin həyata keçirdiyi siyasətlər təhlil olunur və bu siyasətin təkmilləşdirilməsi üzrə tövsiyələr işlənilmişdir.

Araşdırmanın **birinci hissəsi**ndə regional sosial-iqtisadi inkişafda qeyri-bərabərliyin mövcud vəziyyəti rəsmi statistik məlumatlar əsasında təhlil olunur və onun səbəbləri araşdırılır. Tədqiqatda daha sonra bu problemin aradan qaldırılması istiqamətində hökumətin indiyədək həyata keçirdiyi siyasət addımları araşdırılır, bu siyasətin nəticələri və əldə olunan nəticələr təqdim olunur.

Daha sonra regionların sosial-iqtisadi inkişafındakı qeyri-bərabərliyin azaldılmasına və regionların tarazlı inkişafına nail olmaq üçün, beynəlxalq təcrübə əsasında, hökumətin siyasətində zəruri dəyişikliklərin istiqamətləri təqdim olunur.

Sonda həmin istiqamətlər konkretləşdirilərək tövsiyələr halında təqdim olunur.

Siyasət yazısı masaüstü tədqiqat formatında işlənilmişdir.

# 1. Sosial-iqtisadi inkişafda regional qeyri-bərabərlik problemi: mövcud durum və səbəbləri

Ölkədə dayanıqlı və tarazlı inkişafın vacib şərtlərindən biri ölkənin ümumi sosial və iqtisadi inkişafının onun bütün əhalisinə və bütün regionlarına əsasən eyni səviyyədə təsirinin təmin edilməsidir.

Azərbaycan ərazisi sosial-iqtisadi inkişaf səviyyəsinə və iqtisadi potensialına görə sanki bir-birindən kəskin fərqlənən 2 hissəyə bölünmüş kimi görünür: 1) ölkə ərazisinin cəmi 7%-ni təşkil edən və əhalisinin 30%-inə qədərinin yaşadığı Bakı şəhəri və Abşeron yarımadasında ölkənin iqtisadi potensialının təqribən 75-80%-i cəmləşir; 2) ölkə coğrafiyasının 93%-ni və əhalisinin 70%-ni əhatə edən digər ərazilərdə isə ölkə iqtisadiyyatının cəmi 20-25%-i formalaşır. Eyni zamanda, qeyd olunan 2-ci hissədə olan ayrı-ayrı regionalar arasında da sosial-iqtisadi inkişaf səviyyəsinə və iqtisad potensialına görə ciddi fərqlər müşahidə olunur.

Bu fərqləri daha yaxşı görmək və anlamaq üçün, əvvəlcə, iqtisadi rayonlar üzrə Azərbaycanın regional ərazi və əhalinin say strukturuna nəzər salaq (cədvəl 1).

**Cədvəl 1**

**İqtisadi rayonlar üzrə Azərbaycanın regional ərazi və əhalinin say strukturu**
**(2019-cu il yanvarın 1-nə olan məlumat)**

| | **Ərazi** | | **Əhali** | |
|---|---|---|---|---|
| | **min kv.km.** | **ümumi yekunda payı, %** | **sayı, min nəfər** | **ümumi yekunda payı, %** |
| **Azərbaycan Respublikası, cəmi** | **86.6** | **100** | **10067.1** | **100** |
| Bakı şəhəri | 2.14 | 2.47 | 2293.1 | 22.8 |
| Abşeron iqtisadi rayonu | 3.73 | 4.31 | 576.5 | 5.7 |
| Gəncə-Qazax iqtisadi rayonu | 12.30 | 14.20 | 1294.1 | 12.85 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 8.84 | 10.21 | 626.7 | 6.23 |
| Lənkəran iqtisadi rayonu | 6.07 | 7.01 | 946.7 | 9.40 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 6.96 | 8.04 | 554.7 | 5.51 |
| Aran iqtisadi rayonu | 21.15 | 24.42 | 2046.3 | 20.33 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 7.33 | 8.46 | 687.7 | 6.83 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 6.42 | 7.41 | 259.5 | 2.58 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 6.13 | 7.08 | 322.2 | 3.20 |
| Naxçıvan Muxtar Respublikası | 5.50 | 6.35 | 459.6 | 4.57 |

**(Mənbə: Dövlət Statistika Komitəsi)**

DSK-nın məlumatılarına əsasən, 2019-cu ildə ölkə üzrə ***ümumi məhsul buraxılışının*** həcmi 88.9 milyard manat təşkil edib. Bunun 60.9 milyard manatı (yaxud 68.9 %-i) Bakı şəhərinin daha 5.3 mliyardı (5.9%-i) Abşeron iqtisadi rayonunun payına düşüb. Beləliklə, Bakı-Abşeron zonasında ölkə üzrə ümumi məhsulun ***75.8%-i*** yaradılmışdır. Halbuki həmin il ölkənin ərazisi və əhalisi baxımından ən böyük iqtisadi rayon olan Aran iqtisadi rayonunda 7.5 mlrd. manatlıq ümumi məhsul yaradılıb ki, bu da ölkə üzrə ümumi məhsulun 9.0%-i deməkdir. 2019-cu ildə ölkə üzrə ümumi məhsulun 4.6%-i

(4.1 mlrd. manat) Gəncə-Qazax iqtisadi rayonunun, 2.5%-i (1.9 mlrd. manat) Şəki-Zaqatala iqtisadi rayonunun, 2.2%-i (1.8 mlrd. manat) Lənkəran iqtisadi rayonunun, 2.5%-i (2.1 mlrd. manat) Quba-Xaçmaz iqtisadi rayonunun, 1.1%-i (1.0 mlrd. manat) Dağlıq Şirvan iqtisadi rayonunun və 4.7%-i (3.6 mlrd. manat) Naxçıvan Muxtar Respublikasının payına düşüb (Ərazilərinin əksər hissəsi işğal altında olan Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarını təhlilə daxil etmirik).
DSK-nın məlumatları əsasında apardığımız hesablamalar göstərir ki, 2019-cu ildə ölkənin əraziləri üzrə yaradılan illik ***ÜDM-in hər nəfər hesabı ilə düşən miqdarı*** Bakı şəhərində 3831 manat, Abşeron iqtisadi rayonunda 1000 manat, Gəncə-Qazax i.r.-da 400 manat, Aran i.r.-da 200 manat, Şəki-Zaqatala i.r.-da 190 manat, Quba-Xaçmaz i.r.-da 150 manat, Lənkəran-Astara i.r.-da 90 manat, Dağlıq Şirvan i.r.-da 88 manat olmuşdur. Göründüyü kimi, Bakı şəhərində adambaşına düşən ÜDM-in miqdarı ilə ölkə üzrə ən aşağı göstəriciyə malik region arasında fərq **43 dəfədən çoxdur**.

DSK-nın məlumatına əsasən, 2019-cu ildə Azərbaycanda ***əhalinin ümumi gəlirləri*** 56.8 milyard manat olmuşdur. Bunun 33.0 milyard manatı yaxud 58.1%-i Bakı şəhərində, 2.3 milyardı yaxud 4.1%-i isə Abşeron ərazisində formalaşmışdır: başqa sözlə, ölkə üzrə əhalinin illik ümumi gəlirlərinin **62.2%-i** Bakı-Abşeron zonasının payına düşmüşdür. Əhalinin ümumi gəlirlərinin 12.7%-i (7.2 mlrd. manat) Aran, 8.2%-i (4.7 mlrd. manat) Gəncə-Qazax, 4.5%-i (2.6 mlrd. manat) Lənkəran, 3.3%-i (1.9 mlrd. manat) Şəki-Zaqatala, 3.3%-i (1.9 mlrd. manat) Quba-Xaçmaz və 1.7%-i (1.0 mlrd. manat) Dağlıq Şirvan iqtisadi rayonlarının, 3.3%-i (1.9 mlrd. manat) isə Naxçıvan MR-nın payına düşümüşdür.

2019-cu ildə ölkədə istehsal olunmuş 47.0 mlrd. manatlıq ***sənaye məhsulunun*** 39.7 mlrd. manatı yaxud 84.6%-i Bakıda, 2.4 mlrd. manatı (5.0%-i) isə Abşeronda baş vermişdir. Yəni Bakı-Abşeron zonasında ölkə üzrə ümumi sənaye istehsalının 89.6%-i istehsal olunmuşdur. Ölkənin qalan bütün ərazisində sənaye istehsalının cəmi 10%-i istehsal olunmaqdadır.

2019-cu ildə ölkənin bank sektoru üzrə iqtisadiyyatın bütün sahələrinə yönəldilmiş 14.9 miliyard manatlıq ümumi ***kredit qoyuluşunun*** 11.9 milyard manatı yaxud 80%-i Bakı şəhərinin payına düşmüşdür.

2019-cu ildə ölkədə ***əsas kapitala yönəldilən investisiy***aların ümumi məbləği 18.5 milyard manat olub. Bunun 10.9 mlrd. manatı Bakıda, 2.5 mlrd. manatı isə Abşeron iqtisadi rayonunda reallaşdırılıb. Beləliklə, illlik əsaslı vəsait qoyuluşunun 13.4 mlrd. manatı yaxud **72.4%-i** Bakı-Abşeron zonasının payına düşmüşdür. Digər regionlar üzrə il ərzində əsas kapitala yğnəldilən investisiyaların məbləği və ölkə üzrə ümumi investisiyalarda payı belə olmuşdur:

- Aran iqtisadi rayonu üzrə - 1319.4 mln. manat yaxud 7.0%,
- Gəncə-Qazax- iqtisadi rayonu üzrə - 884.0 mln.manat yaxud 4.8%,
- Şəki-Zaqatala iqtisadi rayonu üzrə - 404.2 mln. manat yaxud 2.2%,
- Lənkəran iqtisadi rayonu üzrə - 283.3 mln. manat yaxud 1.5%,
- Quba-Xaçmaz iqtisadi rayonu üzrə - 672.6 mln. manat yaxud 3.6%,
- Dağlıq Şirvan iqtisadi rayonu üzrə -387.4 mln. manat yaxud 2.1%,
- Naxçıvan MR üzrə - 1029.3 mln. manat yaxud 5.6%.

DSK-nın məlumatlarına görə, *2010-2019-cu illər dövründə* ölkə ərazisində həyata keçirilən ***əsaslı vəsait qoyuluşunun ümumi məbləği*** **154.0 milyard manat**dan çox olub. Bunun 103.8 milyard manatı yaxud **67.5%-i** Bakı şəhərində reallaşıb, qalan 50.0 milyard manatı isə ölkənin regionlarına yönəldilib.

Bu müddət ərzində Abşeron iqtisadi rayonuna 6.8 mliyard (4.4%), Gəncə-Qazax iqtisadi rayonuna 7.3 milyard manat (4.8%), Şəki-Zaqatala iqtisadi rayonuna 3.7 milyard manat (2.4%), Lənkəran iqtisadi rayonuna 3.3 milyard (2.1%), Quba-Xaşmaz iqtisadi rayonuna 4.9 milyard manat (3.2%), Aran iqtisadi rayonuna 11.7 milyard manat (7.6%), Dağlıq Şirvan iqtisadi rayonuna 2.2 milyard manat (1.4%) və Naxçıvan Muxtar Respublikasına 9.3 milyard manat (6.0%) investisiya qoyuluşu həyata keçirilib.

Həmin dövrdə əsasən işğal altında olan Yuxarı Qarabağ və Kəlbəcər-Laçın qtisadi rayonlarına məlum səbəblərdən investisiya qoyuluşu demək olar həyata keçirilməyib, Amma son illər Yuxarı Qarabağ iqtisadi rayonunda Cocuq-Mərcanlı və bəzi başqa ərazilərin məskunlaşması və abadlıq işləri üçün təqribən 1 milyard manatadək vəsait istifadə olunub. Amma 2020-ci ildə rəşadətli ordumuzun zəfər yürüşü nəticəsində işğal altında olan torpaqlarımız işğaldan azad olunub və bundan sonrakı 10 ildə məhz bu 2 regionda – Yuxarı Qarabağ və Kəlbəcər-laçın iqtisadi rayonlarında – bərpa, dirçəliş və məskunlaşma işlərinin həyata keçirilməsi, oralarda bütün növ (sosial, istehsal, texnoloji və s.) infrastrukturun yenidən qurulması işlərinə çox böyük həcmlərdə vəsait tələb olunacaq. 2021-ci ilin dövlər büdcəsində bu məqsəd üçün artıq 2.2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub[1].

Eyni zamanda, bu ərazilərin bərpası və dirçəldilməsi işlərinə biznesin, xüsusilə yerli və xarici investorların cəlb edilməsi, "dövlət-özəl sektor" əməkdaşlığı mexanizmlərindən geniş istifadə olunması nəzərdə tutulur.

Sosial xidmətlərlə bağlı təminat dedikdə ilk öncə ağlımıza təhsil və səhiyyə ilə xidmətləri ilə bağlı təminat gəlir. Məktəbəqədər təhsillə və ixtisaslı kadrları ilə bağlı Bakı və regionlar arasında müxtəlif fərqliliklər mövcuddur. Əhalinin ***hər 10000 nəfərinə düşən həkim sayı*** Bakı şəhərində 91, Abşeronda 30, Gəncə-Qazax i.r-da 19, Şəki-Zaqatala i.r.-da 17, Lənkəran i.r.-da 10, Quba-Xaçmaz i.r.-da 13, Aran i.r.-da 14, Dağlıq Şirvan i.r-da 10 təşkil edir.

Ayrı-ayrı bölgələrin qazla təminat göstəriciləri 45-95% ətrafında dəyişir. Mərkəzləşdirilmiş şəbəkə vasitəsilə içməli su təminatı müxtəlif bölgələrdə çox fərqlidir. Bu xidmət üzrə ən aşağı göstərici 2-10% intervalındadır (Gədəbəy, Ağcabədi, Cəlilabad və s. rayonlarda). Mərkəzləşdirilmiş kanalizasiya xidmətləri ilə təminat isə regionlarda daha pis vəziyyətdədir. Rəsmi rəqəmlərdən görünür ki, 60-dan artıq kənd rayonundan 18-də mərkəzləşdirilmiş kanalizasiya xidmətləri ilə təminat səviyyəsi 20%-dən, öz növbəsində 32 bölgədə 40%-dən aşağıdır[2].

Hazırki dövrdə əhalinin davamlı informasiyaya çıxışının təmin edilməsində internetin rolu əvəzsizdir. Ölkəmizdə mobil rabitə vasitəsilə internet əhali üçün sərfəli olmadığından, mənzillərin telefonla təminat səviyyəsi mühüm göstərici sayılır.

Rəsmi statistikaya görə, Bakıda hər 100 ailəyə düşən sabit şəbəkə telefon sayı hazırda 113, Abşeronda 99, digər bölgələrdə isə 30-60 intervalında dəyişir. Beləliklə, yuxarıdakı təhlili ümumiləşdiurməklə demək olar ki, ölkənin bütün sosial-iqtisadi inkişaf parametrləri üzrə həm Bakı və Abşeron zonası ilə ölkənin digər regionaları arasında, həm də Bakı-Abşeron istisna olmaqla, ölkənin qalan regionlarının özləri arasında kəskin fərqlər hökm sürməkdə davam edir. Bu vəziyyət ölkənin regionlaırnda yoxsullaşma və işsizliyin artmasına, sosial təbəqələşmənin dərinləşməsinə, əhali arasında miqrasiya

[1] https://static.president.az/media/W1siZiIsIjIwMjEvMDEvMDUvODFnenF1dzE3bF9-kb3ZsZXRfYnVkY2VzaS5wZGYiXV0?sha=06d54f2e87befc80
[2] https://bakuresearchinstitute.org/az/paytaxt-v%c9%99-%c9%99yal%c9%99tl%c9%99r-%c9%99sas-sosial-iqtisadi-f%c9%99rql%c9%99r/

proseslərinin güclənməsinə və Bakı-Abşeron zonasına əhali axının sürətlənməsinə gətirib çıxaran amil kimi çıxış edir. Əgər regionlarda sənaye istehsalının və iqtisadiyyatın digər sektorlarının inkişafı prosesinə layiqincə diqqət ayrılmazsa, ölkənin regionlarında yoxsullaşma sürətlə artacaq, sosial təbəqələşmə daha da dərinləşəcək ki, bunun da çox ağır sosial-iqtisadi nəticələri ola bilər.

Ölkənin regionları arasında sosial-iqtisadi inkişafda fərqlərin olması çox sayda amillərdən asılıdır. Belə amillər sırasında, ilk növbədə, aşağıdakıları qeyd etmək olar:

- iqtisadi-coğrafi mövqeyi;
- təbii şəraiti və ehtiyatları;
- əhalinin məskunlaşması səviyyəsi;
- regionun sahə və ərazi quruluşu;
- tarixi inkişaf xüsusiyyətləri.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının 2004-2008-ci illər dövrü üçün qəbul olunmuş birinci Dövlət Proqramında vurğulanırdı ki, regionların sosial-iqtisadi inkişafını şərtləndirən bu amillərlə yanaşı, onların arasında fərqin yaranmasında və iqtisadi rayonların çoxunun zəif inkişaf etməsində aşağıdakıların rolu xüsusi qeyd edilməlidir[3]:

1. Məhsuldar qüvvələrin regionlar arasında qeyri-mütənasib paylanması onların sosial-iqtisadi inkişaf səviyyəsində kəskin fərq yaratmışdır. Belə ki, iqtisadiyyatın, xüsusilə sənayenin, infrastruktur sahələrinin əsas hissəsinin Bakı şəhərində cəmlənməsi, onun rayonlara nisbətən daha sürətlə inkişaf etməsi ilə yanaşı regionlarda sosial-iqtisadi vəziyyətin ağırlaşmasına və əhalinin regionlardan Bakıya axınına səbəb olmuşdur.
2. Ermənistanın Azərbaycana qarşı apardığı işğalçı müharibə nəticəsində torpaqların 20 faizi zəbt olunmuş, işğal altında qalan rayonlarda mövcud iqtisadi potensial talan edilmiş, istehsal-texniki və infrastruktur obyektlər dağıdılmış, Azərbaycan xalqı çoxsaylı insan tələfatına məruz qalmış, bir milyona yaxın vətəndaş öz yaşayış və iş yerlərini, var-dövlətlərini itirərək öz vətənində qaçqın vəziyyətinə düşmüşdür.
3. Azərbaycanda aparılan torpaq və aqrar islahatları nəticəsində regionlarda yaşayan əhalinin çox hissəsi torpaq və digər daşınmaz əmlak sahibinə çevrilməsinə baxmayaraq insanlarda ilkin kapitalın, eyni zamanda, aqrar sektorun inkişafını təmin edən şəraitin, o cümlədən texnikanın, servisin, məsləhət xidmətinin, infrastrukturun, emal müəssisələrinin və s. kifayət qədər olmaması əldə olunmuş imkanlardan səmərəli istifadə edilməsini məhdudlaşdırır.

Bu qeyd olunanlarla yanaşı, ölkənin regional inkişafdakı qeyri-bərabərliyin və disbalansın mühüm səbəblərindən biri kimi həm də idarəetmə və iqtisadiyyatın dövlət tənzimlənməsində olan problemləri və boşluqları qeyd etmək zəruridir.

[3] http://www.e-qanun.az/framework/4797

## 2. Problemin həlli istiqamətində indiyədək həyata keçirilən tədbirlər və onların nəticələri

Azərbaycanda regionların inkişafı arasında olan qeyri-bərabərliyin aradan qaldırılması və regionların tarazlı inkişafı məsələləri son 20 ildə hökumətin qəbul etdiyi bir çox siyasət və strategiya sənədlərində əksini tapıb. Ölkədə regionların sosial-iqtisadi inkişafı sahəsində 4 dövlət proqramı qəbul olunub ki, bunlardan ilk üçü artıq icra olunub:

1) Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nın əsas məqsədi qeyri-neft sektorunun davamlı inkişafı, ölkə regionlarının tarazlı inkişafının təmin edilməsi, regionlarda kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin və müəssisələrin yaradılması nəticəsində əhalinin məşğulluq səviyyəsinin artırılması və həyat səviyyəsinin yüksəldilməsindən ibarət olmuşdur;

2) Ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olunması məqsədilə 2004-cü ildən başlanılmış tədbirlərin davam etdirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 80 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Bu Dövlət Proqramının uğurlu icrası nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin daha da yüksəlməsində mühüm rol oynamışdır;

3) Regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü siyasətin davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Qeyd olunan Dövlət Proqramının əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası, regionların sürətli inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarət olmuşdur.

4) Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli (№ 500) Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq olunub.

Regionların tarazlı inkişafına nail olunması "Azərbaycan 2020: Gələcəyə baxış" Konsepsiyasının da əsas hədəflərindən biri kimi müəyyən edilmişdi. Konsepsiyada regionların tarazlı inkişafı ilə bağlı müəyyən edilən əsas hədəflər aşağıdakılar idi[4]:

- Regional inkişaf prioritetləri nəzərə alınmaqla bölgələrdə dövlətin infrastruktur və investisiya siyasəti ilə biznesin investisiya strategiyalarının əlaqələndirilməsi, xərc-gəlir təhlilləri əsasında iqtisadi səmərəlilik baxımından prioritetləşdirilməsi;
- Həyat səviyyəsinə və keyfiyyətinə, adambaşına düşən məhsul buraxılışına, investisiyaların həcminə görə fərqlər, əmtəə dövriyyəsinin iqtisadi rayonlar üzrə strukturunda kəskin fərqlərin aradan qaldırılması, ölkənin iqtisadi rayonları arasında mövcud olan fərqlərin azaldılması.

[4] "Azərbaycan 2020 – Gələcəyə baxış konsepsiyası" https://www.president.az/files/future_az.pdf

- Müasir yanaşma çərçivəsində iqtisadi qərarların qəbul olunmasında yerli özünüidarəetmə orqanlarının çevikliyinin artırılması.
- Regional inkişaf mərkəzləri vasitəsilə bölgələrdə tarazlı sosial-iqtisadi inkişafın təmin edilməsinin stimullaşdırılması, bu yolla regional bərabərsizliyin azaldılması, iqtisadi resursların əsasən mərkəzi şəhərlərdə təmərküzləşməsinin səngidilməsi.

Problemlə bağlı atılan daha bir addım da "İnvestisiyanın təşviqi sənədi"dir. Sənədin qəbul olunmasında əsas məqsəd investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sənaye istehsalının artırılması və "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 5.2-ci bəndinə uyğun olaraq investisiyaların təşviqi ilə bağlı mexanizmin təkmilləşdirilməsi kimi qeyd edilir.

"Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda qeyd olunur: "Dövlətin sosialyönümlü iqtisadiyyat quruculuğu və insanların layiqli iş yerləri ilə təmin edilməsi istiqamətində apardığı siyasət öz müsbət tövhəsini vermiş, ölkənin sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 2004-2018-ci illər ərzində 1,5 milyonu daimi olmaqla, 2 milyondan artıq yeni iş yeri yaradılmışdır ki, bu iş yerlərinin də 75 faizi regionların payına düşmüşdür"[5].

Proqramda vurğulanır ki, regionlarda sənaye istehsalının inkişafı məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 fevral tarixli 1077 nömrəli Sərəncamı ilə Mingəçevir Sənaye Parkı, Neftçala Sənaye Məhəlləsi (burada 9 müəssisə və 1 kiçik sahibkarlıq emalatxanası fəaliyyət göstərir) və Masallı Sənaye Məhəlləsi (burada 10 müəssisə fəaliyyət göstərir) yaradılmışdır. Hacıqabul Sənaye Məhəlləsində və Sabirabad Sənaye Məhəlləsinin yaradılması işləri davam etdirilir. Ölkədə xalçaçılığın inkişaf etdirilməsi üçün respublikanın 20 rayonunda "Azərxalça" ASC-nin xalça istehsalı fabrikləri yaradılmışdır.

"Azərbaycan İnvestisiya Şirkəti" ASC, Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi, "Aqrolizinq" ASC, AZPROMO və digər institusional mexanizmlər vasitəsilə regionlarda özəl sektora dəstək göstərilməkdədir.

Bunlarla yanaşı, son illər ölkədə biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar da regionların inkişafına yeni stimullar yaradılması baxımından əhəmiyyətlidir. Sahibkarlığın inkişafı məqsədilə həyata keçirilən islahatların tərkib hissəsi kimi, lisenziyalar və icazələr sisteminin tənzimlənməsi və inzibati prosedurların sadələşdirilməsi istiqamətində aparılan kompleks tədbirlər nəticəsində lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 59-dan 37-yə, icazələrin sayı 330-dan 86-ya endirilmiş, yeni verilən və qüvvədə olan müddətli lisenziyalar müddətsiz müəyyən edilmiş, lisenziyaların verilməsinə görə dövlət rüsumunun məbləğləri təxminən 2 dəfə, regionlar üzrə 4 dəfə azaldılmış, lisenziyaların verilməsi müddəti 15 gündən 10 iş gününə endirilmiş və prosedurlar sadələşdirilmişdir[6].

Dövlət Proqramları çərçivəsində regionlarda infrastrukturun bərpası və inkişafı, əhalinin kommunal xidmətlərlə, o cümlədən elektrik enerjisi, qaz və su ilə təchizatı, səhiyyə və təhsil müəssisələrinin

---

[5] http://www.e-qanun.az/framework/41320
[6] http://www.e-qanun.az/framework/41320

tikintisi, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, bu sahəyə irihəcmli dövlət investisiyaları yönəldilmişdir.

"Son 15 ildə regionlarda 2980 məktəbdə, 360 məktəbəqədər təhsil müəssisəsində və 477 səhiyyə müəssisəsində tikinti, əsaslı təmir və yenidənqurma işləri həyata keçirilmiş, regionlarda 34 olimpiya idman kompleksi, 34 gənclər evi inşa olunmuşdur"[7].

İcra olunan 3 xüsusi proqrama, habelə digər addımlara rəğmən ölkənin regional inkişafında olan qeyri-bərabərliyin aradan qaldırılması istiqamətində hələ də çox böyük irəliləyişlərin olduğunu söyləmək çətindir. Bunu yuxarıda apardığımız təhlillər də sübut edir.

Buna görə də Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının əsas məqsədi kimi bunlar müəyyən edilmişdirbelə müəyyən edilmişdir: "Azərbaycan Respublikasında regionların davamlı və tarazlı inkişafının təmin olunması, o cümlədən yerlərdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyat, yüksək standartlara cavab verən sosial rifah, təbii resursların səmərəli istifadəsi və ətraf mühitin etibarlı mühafizəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin formalaşdırılmasına imkan verən əlverişli mühit yaratmaq"[8].

Buna görə də regional sosial-iqtisadi inkişafın determinantlarının dəqiq müəyyən edilməsinə, habelə uğurlu beynəlxalq təcrübələr əsasında ölkədə regionların tarazlı inkişafını təmin edə biləcək daha səmərəli mexanizmlərin yaradılması və tətbiqinə ehtiyac duyulur.

---

[7] Yenə orada

[8] Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı http://www.e-qanun.az/framework/41320

# 3. Regionların tarazlı sosial-iqtisadi inkişafının təmin edilməsi yolları və mexanizmləri

İnkişaf dedikdə cəmiyyət həyatının bir (köhnə) keyfiyyət halından (vəziyyətindən) başqa bir (yeni) keyfiyyət halına (vəziyyətinə) keçidlə bağlı dəyişiklik (hərəkət) başa düşülür. Yəni bu prosesdə zaman-zaman geriləmələr mümkün olsa da, uzunmüddətli dövrdə inkişaf əsasən irəliyə, pozitiv dəyişikliklərə istiqamətlidir. Bəşəriyyətin inkişaf tarixi bunu təsdiq edir. Cəmiyyət həyatında inkişaf tədrici və inqilabi dəyişikliklər yolu ilə baş verə bilər.

Sosial inkişaf dedikdə ölkə (habelə region, rayon, kənd və s.) əhalisinin rifah səviyyəsinin və firəvanlığının yüksəlməsi nəzərdə tutulur. İqtisadi inkişaf isə ölkə (habelə region, rayon yaxud şəhər) miqyasında istehsal və istehlakda kəmiyyət və keyfiyyət irəliləyişlərini (dəyişikliklərini) əks etdirir. Bunlar bir-biri ilə sıx bağlıdır.

Sosial-iqtisadi inkişaf - müəyyən dövr ərzində ölkənin (region, rayon, şəhər və s.) həm iqtisadiyyatının, həm də orada yaşayan əhalinin rifah səviyyəsinin bir-biri ilə əlaqəli şəkildə davamlı olaraq artması və keyfiyyətcə yaxşılaşmasıdır.

Regional sosial-iqtisadi inkişaf – yerli əhalinin rifah səviyyəsinin və həyat keyfiyyətinin yüksəldilməsi məqsədi ilə müvafiq regionların iqtisadiyyatında və sosial sferada dəyişikliklərin kompleks idarə edilməsi prosesidir.

“Regional inkişaf” geniş anlayış olsa da, dünya təcrübəsində və nəzəri yanaşmalarda bu ilk öncə bölgələrarası fərqlərin azaldılmasına nail olmaq səyləri kimi qəbul olunur[9]. Müasir inkişaf modellərində bu məqsədə nail olmaq üçün keyfiyyətli fiziki infrastrukturun formalaşdırılması yetərli sayılmır. Tarazlı bölgə inkişafı üçün regionların rəqabət qabiliyyətliliyinin təmin edilməsi və regionlarda yaşayan bütün əhalinin xidmətlərə bərabər çıxışının təmin olunması vacib şərtlər hesab olunur.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) yanaşmasına görə də “regional inkişaf” geniş anlayış olsa da, bunu ilk öncə bölgələrarası fərqlərin azaldılmasına nail olmaq səyləri kimi qəbul etmək lazımdır. Bir neçə il əvvələdək “regional inkişaf” dedikdə əsasən böyük həcmdə sərmayələr hesabına irimiqyaslı infarstrukturun yaradılması alaşılırdı. Lakin köhnə yanaşma regional bərabərsizliyi aradan qaldırmaqda uğursuzluğa düçar oldu, iqtisadi baxımdan geri qalan regioanlarda hədəflənən inkişafın əldə edilməsi ilə nəticələnmədi – baxmayaraq ki, ictimai fondlar vasitəsilə bu məqsədə böyük böyük vəsaitlər xərclənirdi[10].

OECD ekspertləri vurğulayır ki, regional inkişaf siyasətinin 2 məqsədi olmalıdır və hazırlanan regional inkişaf strategiyaları bilavasitə bu məqsədlər üzərindən formalaşdırılmalıdır:

1) iqtisadi inkişaf üçün coğrafi məkan rolunu oynayan regionların rəqabət qabiliyyətliliyinin təmin edilməsi;

---

[9] http://edf.az/uploads/documents/regional_inkishaf.pdf
[10] http://www.oecd.org/gov/regional-policy/regionaldevelopment.htm

2) bütün regionlar, həmçinin regionlar daxilində müxtəlif ərazilər üzrə baza əmtəə və xidmətlərə bütün əhalinin bərabər çıxışının təmin olunması[11].

OECD ekspertlərinin yanaşmasına görə, bütün regionların milli iqtisadiyyata tam gücü ilə töhfə verə bilməsi üçün ilk növbədə regionların rəqabət üstünlüklərinin təmin edilməsi önəmlidir[9]. Azərbaycanın 2014-2018-ci illər üzrə regional inkişaf proqramında bölgələrdə rəqabət qabiliyyətli məhsul istehsalının vacibliyi vurğulanır, lakin bütövlükdə bölgə iqtisadiyyatının, coğrafi olaraq məskunlaşma ərazisi kimi regionun rəqabət qabiliyyətliyinin təmin edilməsi üçün zəruri mexanizmlərin tətbiqi hədəf olaraq qarşıya qoyulmur.

Beynəlxalq təcrübədə adətən milli səviyyədə hökumətin regional inkişaf siyəsətinin çərçivələrini müəyyən edən inkişaf strategiyası hazırlanır, bu strategiyadan çıxış edərək hər bir iqtisadi rayon üzrə onların spesifik coğrafi və iqtisadi inkişaf xüsusiyyətləri, potensialı nəzərə alınmaqla bölgə iqtisadi inkişaf planları işlənir. Bu təcrübədən region ölkələrindən Türkiyə və Gürcüstan yararlanır.

Regionun sosial-iqtisadi inkişafının idarə edilməsi – bu, hökumətin ölkənin ayrı-ayrı ərazilərinin (bölgələrinin) inkişafının təmin edilməsinə (tənzimlənməsinə) yönəlik xüsusi fəaliyyətidir. Belə fəaliyyətin məqsədi ərazinin bütün resurslarından səmərəli şəkildə istifadə etməklə orada yaşayan əhalinin sosial rifahının yüksəldilməsinə nail olmaqdır. Buna regionda baş verən bütün iqtisadi və sosial proseslərin əlaqələndirilmiş şəkildə idarə edilməsi mexanizmlərinin qurulması yolu ilə nail olmaq mümkündür. Azərbaycanda regional hakimiyyətlər olmadığından, bütün regionların və inzibati rayonların sosial-iqtisadi inkişafının idarə edilməsi birbaşa mərkəzi hökumət tərəfindən həyata keçirilir. Azərbaycanda bu sahə bilavasitə İqtisadi İnkişaf Nazirlyinin səlahiyyətinə aiddir. Bir sıra ölkələrdə regional inkişafa məsul olan ayrıca qurumlar fəaliyyət göstərir. Məsələn, Türkiyədə İqtisadiyyat Nazirliyi ümumi iqtisadi inkişaf məsələlərinə salahiyyətlidir[12]. Regionların inkişafı isə bilavasitə İnkişaf Nazirlyinin (Kalkınma Bakanlığı) səlahiyyətindədir[13].

Ölkəmizdə regionların sosial-iqtisadi inkişafının idarə edilməsi və təsir göstərilməsində mərkəzi hökumətlə yanaşı bu və ya digər səviyyədə iştirak edən institutlara bunları da aid etmək olar: parlament; mərkəzi hakimiyyətin regional inkişafa məsul ixtisaslaşdırılmış qurumları (məsələn, regional inkişaf üzrə nazirlik, infrastruktur inkişafı üzrə qurum, kənd inkişafı üzrə məsul qurum və s.);b mərkəzi icra qurumlaırnın regional və rayon (şəhər) idarələri; beynəlxalq qurumlarlar (konkret layihələr vasitəsilə); rayon və şəhər İcra hakimiyyətləri; bələdiyyələr; icmalar və yerli vətəndaş cəmiyyəti. Bu institutların hər birinin regionların sosial-iqtisadi inkişafının idarə edilməsində az və ya çox dərəcədə özünəməxsus rolu var. Bu proseslərdə bütün qurumların fəaliyyətlərinin səmərəli əlaqələndirilməsi zəruridir. Amma uğurlu beynəlxalq təcrübələrdə regionların sosial-iqtisadi inkişaf məsələləri əsasən regional və yerli hakimiyyət qurumlarına, yəni birbaşa regional və yerli səviyyəli bələdiyyələrin səlahiyyətində və məsuliyyətində olur.

Azərbaycanda isə "Azərbaycan 2020: Gələcəyə baxış" Konsepsiyasında nəzərdə tutulmasına baxmayaraq son 4 ildə bələdiyyələrin bölgə inkişafında rolunun artırılması, bu qurumların qərar qəbuletmədə rolunun artırılması istiqamətində hər hansı hüquqi addım atılmayıb. Amma problem

[11] Governing Regional Development Policy. OECD 2009.
[12] http://www.ekonomi.gov.tr
[13] http://www.kalkinma.gov.tr/Pages/index.aspx#

yalnız yerli özünüidarənin səlahiyyət məhdudluğu ilə bağlı deyil. Bələdiyyələrin maliyyə potensialı da çox məhduddur.

Hökumətin regionların sosial-iqtisadi inkişafına münasibətdə həyata keçirdiyi siyasətlərin aşağıdakı tipləri fərqləndirilir:

- ***Regional inkişafın bərabərləşdirilməsi*** (yaxud regionların inkişafında olan disproporsiyaların aradan qaldırılması) siyasəti – ölkəmizdə həyata keçirilən və yuxarıda sadaladığımız regionların sosial-iqtisadi inkişaf proqramları bu qəbildən olan proqramlardır;
- ***"Fokuslaşdırılmış inkişaf" siyasəti*** (yaxud "artım lokomotivlərinin" yaxud "istinad bölgələrinin" yaradılması siyasəti) - əslində rəsmi olmasa da, son zamanlar ölkədə bir neçə bölgəyə münasibətdə belə siyasət reallaşdırılıb. Belə ki, hər bir bölgədə əsasən bir inzibati rayonun inkişafına daha çox diqqət ayrılması müşahidə olunub. Məsələn, Qəbələ və Xaşmaz rayonları turizmin inkişaf etdirilməsi baxımından xüsusilə yüklənilib. Son illərdə isə ayrı-ayrı rayonlarda sənaye məhəllələri yaradılmaqla bunları bölgənin sənaye mərkəzlərinə çevrilməsi istiqamətində addımlar atılır. Məsələn, Masallıda, Sabirabad və Neftçalada sənaye məhəllələrinin yaradılması;
- ***Sinergiya siyasəti*** – belə siyasət bölgələrin inkişafında sinxronlaşdırmanın təmin edilməsinə yönəlir;
- ***Diferensiallaşdırılmış siyasət*** – belə siyasət ayrı-ayrı bölgələrdə xüsusi iqtisadi zonaların yaxud klasterlərin yaradılmasını nəzərdə tutur.

Regionların sosial-iqtisadi inkişafındakı qeyri-bərabərliyin aradan qaldırılması və tarazlı inkişafın təmin edilməsi nə nail olmaq üçün mövcud idarəetmə mexanizmlərinin dəyişdirilməsi ilə yareginlarda iqtisadi inkişafı sürətləndirəcək daha səmərəli mexanizmlərin də yaradılması zəruridir. Dünya təcrübəsində belə səmərəli mexanizmlərdən biri də regional klasterlərin yaradılmasıdır.

Tanınmış iqtisadçı M.Porterə görə, klasterləşmə eyni sahədə sahədə çalışan və aralarında iş birliyi olan, eyni zamanda bir-biri ilə rəqabət aparan və biri-birindən qarşılıqlı asılılığı olan müəssisələrin, ixtisaslaşmış təchizatçıların, əlaqəli sənaye sahələrindəki firmaların və dəstəkləyici təsisatların (universitetlər, peşə-təhsili məktəbləri, peşə birlikləri və s.) coğrafi təmərküzləşməsini ifadə edir[14]. Klaster yanaşmasının ənənəvi sektor inkişafından başlıca fərqi odur ki, müəyyən coğrafi sərhədlər daxilində bir-birini təkrarlayan deyil, biri-birini tamamlayan və dəstəkləyən firmalar çalışır, həmin firmaların biri digərinə dəyər zənciri ilə bağlı olur, xidmət və istehsal sekoru eyni çətir altında fəaliyyət göstərir, son məhsulun əldə oldunması üçün tələb edilən bütün mərhələlər bir məkanda reallaşar.

Klasterləşmə həm sektorlar, həm də coğrafi ərazilər üzrə təşkil edilə bilər. Təcrübədə qarışıq modellər də mümkündür. Konkret coğrafi ərazilərin xüsusiyyət-ləri nəzərə alaraq hər bir ərazi üzrə spesifik hesab olunan sahə klasterlərinin təşkili təcrübədə geniş yayılıb. Bir sözlə, klaster müəyyən fəaliyyət sahəsi üzrə ixtisaslaşmış bir qrup müəssisənin dəyər zəncirində yer alan digər qrup müəssisə və təşkilatlarla (araşdırma institutları, məsləhət-xidmət təşkilatları, vətəndaş cəmiyyəti, universitetlər, peşə təhsili, peşə assosiasiayaları və s.) qarşılıqlı əlaqələndirilmiş şəkildə fəaliyyətinin qurulduöu coğrafi məkandır.

---

[14] Competitive regional clusters. OECD Reviews of Regional Innovation.
http://artnet.unescap.org/tid/artnet/mtg/gmscb_regionalclusters.pdf

Regional və sahə klasterləri arasında əsas fərq budur ki, sahə klasterləri konkret məhsul və ya xidmət istehsalı üçün əsas aktyorları bir sektorun ətrafında təmərküzləşdirir, bu halda sahənin qurulduğu məkanın iqtisadi imkanlarından bəhrələnmək əsas hədəf kimi seçilmir, coğrafi yaxınlıq belə klasterlərin qurulması üçün mütləq meyar kimi önə çəkilmir.

Regional klasterlərdə isə istehsal prosesində iştirak edən bütün aktyorların coğrafi yaxınlığı, bölgə inkişafının klsaterləşmə siyasətinin əsas hədəflərindən biri kimi seçilməsi, bölgədə iqtisadi inkişaf üçün əlverişli mühitin formalaşdırılması siyasətin ön planında yer alır.

***Porter regional klasterləri 3 kateqoriyaya ayırıb:***

1) "Yerli sənaye əsaslı klasterlər". Bunlar daha çox fəaliyyət göstərdikləri bölgə çərçivəsində məhsul və xidmət təklif edirlər və bazarlar uğrunda mübarizədə başqa bölgələrlə məhdud rəqabət imkanına malikdir. Belə klasterlər adətən daha çox xidmət sektoru üzrə ixtisaslaşır

2) "Mənbəyə bağlı klasterlər". Belə klasterlər adətən fəaliyyət göstərdikləri bölgənin təbii resurslarına (kömür, neft-qaz, meşə ehtuyatları, qiymətli metallar və s.) əsaslanır. Bu qəbildən olan klasterlər öz məhsullarını realaşdırmaq üçün həm ölkə daxilində, həm də xarici bazarlarda rəqabət aparmaq məcburiyyətində olurlar.

3) "Xalis ticari yönümlü" klasterlər. Bu klasterlər həm qaynaqlara, həm də bazarlara yaxınlığı hədəf alaraq fprmalaşdırılır, eyni zamanda hər cür məhsul və xidmət istehsalı ilə məşğul olur. Porter bu modeli ən rəqabətli klasterləşmə modeli kimi təqdim edir.

İqtisadi proseslərin idarə olunmasında klaster yanaşmasının tətbiqi son onilliklərdə ən müxtəlif ölkələrin təcrübəsində ərazi inkişafının əsas vasitələrindən birinə çevrilib. Xüsusilə də inkişaf etmiş ölkələrdə klasterlər biznesin təşkilinin ən geniş yayılmış formalarından biridir. Sahə tədqiqatçılarının klaster mexanizminin üstünlüyü ilə bağlı əsas arqumenti budur ki, ixtiyari ərazidə rəqabət mühitinin yaranması iqtisadiyyatın oxşar sahələri daxilində həm bir-birini dəstəkləyən, həm də bir-biri ilə rəqabət aparan subyektlərin mövcudluğu sayəsində mümkün olur.

Mövcud durumu və yaxşı beynəlxalq təcrübələri analiz etdikdə tamamilə aydın olur ki, Azərbaycan üçün regional klaserlərin inkişaf mexanizmlərinin hazırlanması son dərəcə mühümdür. Son dövrlər hökumətin təsdiqldədiyi iqtisadi inkişafla strateji yol xəritələrində klasterlərin formalaşmasının vacibliyinə xüsusi diqqət yetirilib. Lakin təcrübələrin öyrənilməsi göstərir ki, ərazi klasterlərinin regional iqtisadi inkişafda rolu və onların formalaşması üçün zəruri şərtlərin araşdırılmasına xüsusi diqqət yetirilib. Dəyərləndirmə göstərir ki, klaster inkişafı üçün zəruri hüquqi-normativ bazanın formalaşdırılması, iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin qiymətləndirilməsi üçün etibarlı mexanizmlərinin yaradılması və klaster inkişafı üzrə ölkə modelinin hazırlanması çox önəmlidir.

# Nəticə və tövsiyələr

Aparılan tədqiqat belə bir nəticəyə gəlməyə əsas verir ki, Azərbaycanda 2004-cü ildən bəri regionların sosial-iqtisadi inkişafına yönəlik 3 dövlət proqramının icra edilməsinə, habelə "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasının icra müddətinin başa çatmasına baxmayaraq ölkədə regionların sosial-iqtisadi inkişafı arasında olan kəskin fərqlərin aradan qaldırılması sahəsində hələ də ciddi problemlər qalmaqda davam edir. Tədqiqatı aparılan təhlili ümumiləşdiurməklə demək olar ki, ölkənin bütün sosial-iqtisadi inkişaf parametrləri üzrə həm Bakı-Abşeron zonası ilə ölkənin digər regionaları arasında, həm də Bakı-Abşeron istisna olmaqla, ölkənin qalan regionlarının özləri arasında kəskin fərqlər qalmaqda davam edir. Belə ki, coğrafi baxımdan ölkə ərazisinin cəmi 7%-nə və əhalisinin isə 30%-i qədərinə sahib olan Bakı-Abşeron zonasında 2019-cu ildə ölkə üzrə ümumi məhsul buraxılışının 75.8%-i, ölkə üzrə əhalinin illik ümumi gəlirlərinin 62.2%-i, ölkə üzrə ümumi sənaye istehsalının 89.6%-i, ölkə iqtisadiyyatına ümumi kredit qoyuluşunun 85%-i, əsas kapitala yönəldilən investisiyaların72.4%-i cəmlənmişdir. 2010-2019-cu illər dövründə ölkə ərazisində həyata keçirilən 154.0 milyard manatlıq əsaslı vəsait qoyuluşunun 67.5%-i Bakı şəhərində reallaşdırılmışdır. Müqayisə üçün qeyd etmək kifayətdir ki, 2019-cu ildə əhalinin ümumi gəlirlərinin 12.7%-i Aran, 8.2%-i Gəncə-Qazax, 4.5%-i Lənkəran, 3.3%-i Şəki-Zaqatala, 3.3%-i Quba-Xaçmaz və 1.7%-i Dağlıq Şirvan iqtisadi rayonlarının, 3.3%-i isə Naxçıvan MR-nın payına düşümşdür.

Bu vəziyyət ölkənin regionlaırnda yoxsullaşma və işsizliyin artmasına, sosial təbəqələşmənin dərinləşməsinə, əhali arasında miqrasiya proseslərinin güclənməsinə və Bakı-Abşeron zonasına əhali axının sürətlənməsinə gətirib çıxaran amil kimi çıxış edir. Əgər regionlarda sənaye istehsalının və iqtisadiyyatın digər sektorlarının inkişafı prosesinə layiqincə diqqət ayrılmazsa, ölkənin regionlarında yoxsullaşma sürətlə artacaq, sosial təbəqələşmə daha da dərinləcək ki, bunun da çox ağır sosial-iqtisadi nəticələri ola bilər.

Buna görə də ölkədə regionların sosial-iqtisadi inkişafındakı qeyri-bərabərliyin azaldılması və daha səmərəli və tarazlı inkişafının təmin edilməsi üçün həm regional inkişafın idarə edilməsi və tənzimlənməsi sahəsində, həm də regionların iqtisadi inkişafının stimullaşdırılması mexanizmləri sahəsində aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

1. ***Azərbaycanda regional inkişafın institusionanal potensialının təkmilləşdirilməsi vacibdir***. Bunun üçün regional inkişafa məsul ayrıca mərkəzi hakimiyyət orqanının yaradılması zəruridir. Bu, ayrıca nazirlik və ya ölkə prezidenti yanında Agentlik formasında da ola bilər;
2. ***İqtisadi baxımdan problemli regionların və əlverişsiz coğrafi şəraitə malik bölgələrin inkişafı üzrə xüsusi proqramların hazırlanması*** və onların icrası prioritet kimi hesab edilməlidir. Regional inkişaf proqramlarınnda bu bölgələrə münasiətdə differnesial təşviq mexanizmləri, vergi və investisiya siyasəti təklif edilə bilər;
3. **Azərbaycanda hər bir iqtisadi rayon üzrə xüsusi inkişaf proqram hazırlanması məqsədəuyğundur**. Ayrıca işlənmiş yerli inkişaf proqramlarında hər bir regionun spesifikası, imkanları və problemləri daha dərindən analiz edilməklə uyğun çıxış yolları təklif edilə bilər;
4. ***Regional sosial-iqtisadi problemlərin həllində bələdiyyələrin iştirakını atırmaq*** üçün onlaırn administrativ və maliyyə potensialının gücləndirilməsi vacibdir. Xüsusilə də

kənd ərazilərində yol və içməli su infrastukturunun qurulmasında və saxlanmasında, ərazilərin məişət tullantılarından təmizlənməsində və abadlaşdırılmasında, yaşıllaşdırma tədbirlərinin həyata keçirilməsində, yerli əhəmiyyətli suvarma sistemlərinin təşkilində bələdiyyələrə müstəsna səlahiyyətlər ayrılmalı, bu səlahiyyətlərin icrası ehtiyac duyulan maliyyə ilə təmin edilməlidir;

5. ***Regional iqtisadi inkişafda klasterlərin yaradılması yanaşmasına keçid edilməli və müvafiq strategiyalar işlənilməlidir.*** Bu strategiya iqtisadiyyatın sektorial və regional inkişaf siyasətlərinin uzlaşdırılması və əlaqələndirilməsi, bölgə inkişafının orta və uzunmüddətli hədəflərinin, həmçinin prioritetlərinin dəqiq müəyyən edilməsində həlledici alət ola bilər;
6. ***Regionların rəqabət qabiliyyətliliyini dəyərləndirməyə*** imkan verən kəmiyyət və keyfiyyət metodları əsasında bölgələrin klaster potensialının analizi aparılmalıdır. Lakin bu qəbildən olan dəyərləndirmələr bütün maraqlı tərəflər, vətəndaş cəmiyyəti ilə açıq müzakirə edilməli, nəticələr tam ictimailəşdirilməlidir;
7. ***Klasterlərin yaradılmasına qarşı xüsusi tələblər müəyyən edilməlidir***. Məsələn, klasterlərin iştirakçılarının sayına, orda KOS-ların təmsilçilik səviyyəsinə minimum tələb müəyyən edilə, ən azı bir universitet və ya elmi araşdırma institunun təsisçilər sırasında olmasə məcburi tələb sayıla bilər.

# Ədəbiyyat siyahısı

1. “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir
2. Azərbaycan Respublikasında 2008-2015-ci illərdə yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli 3043 saylı Sərəncamı ilə təsdiq edilmişdir
3. Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Azərbaycan Respublikasının Prezidentinin 29 yanvar 2019-cu il tarixli (№ 500) Fərmanı ilə təsdiq edilmişdirə http://www.e-qanun.az/framework/41320
4. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). Azərbaycan Respublikasının Prezidentinin 11 fevral 2004-cü il tarixli (№ 24) Fərmanı ilə təsdiq edilmişdir. http://www.e-qanun.az/framework/4797
5. R.Ağayev. “Azərbaycan 2020: Gələcəyə baxiş” İnkişaf Konsepsiyasının “Bölgələrin tarazlı inkişafı” istiqaməti üzrə Monitorinq Hesabatı. SBİİYF, Bakı, 2016 http://edf.az/uploads/documents/regional_inkishaf.pdf
6. R.Ağayev, A.Bayramov, A.Mehtiyev. Yerli sosial-iqtisadi inkişafda vətəndaş cəmiyytinin iştirak imkanları və formaları. Avropa Birliyi və BMT-nin İnkişaf Proqramı, Bakı, 2018
7. R.Ağayev, S.Əliyev, A.Mehtiyev. Kəndin inkişafında bələdiyyələrin rolu: dünya təcrübəsi və Azərbaycan. Bakı, Oksfam təşkilatı və İqtisadi Təşəbbüslərə Yardım Mərkəzi, 2012
8. Gənc liderlik: təlim materialları toplusu. Demokratik Təşəbbüslər İnstitutu. Bakı, 2018
9. Regional iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətləri (Lənkəran iqtisadi rayonu timsalında). Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu. Bakı, 2009
10. Paytaxt və əyalətlər: əsas sosial-iqtisadi fərqlər. Bakı Araşdırmalar İnstitutu. 25 aprel, 2018. https://bakuresearchinstitute.org/az
11. https://www.economy.gov.az/index.html
12. http://maliyye.gov.az/
13. https://www.stat.gov.az/
14. https://www.customs.gov.az
15. https://www.cbar.az/

Sənəd Demokratik Təşəbbüslər İnstitutunun (IDI) apardığı araşdırmalar əsasında tərtib olunub.

IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhfə verən hər kəsə dərin təşəkkürünü bildirir.

Məlumatlardan istifadə edərkən IDI-yə istinad etmək zəruridir.

Əlaqə məlumatları:

Tel: +99450 435 95 42

Web: www.idi-aze.org

E- poçt: idi.azerbaijan@gmail.com

Facebook: www.facebook.com/DTI.IDI